**UOT 902**
**https://doi.org/10.59849/2710-0820.2024.2.145**

**Tarix Dostiyev**
*AMEA Arxeologiya və Antropologiya İnstitutu*
*Aparıcı elmi işçi, tarix elmləri doktoru*
*Azərbaycan*
*dostiyev.tarikh@mail.ru*

# ŞƏMKİR ŞƏHƏRİ ERKƏN İSLAM DÖVRÜNDƏ

***Açar sözlər***: *Azərbaycan, Şəmkir, erkən islam dövrü, müsəlman mədəniyyəti, İslam arxeoloji memarlığı*

## Giriş

Ərəb fəthləri nəhəng bir ərazini əharə edən İslam coğrafiyasının yaranmasına, bu məkanda maddi və mənəvi mədəniyyətində əsaslı dönüşə səbəb oldu. İslam sivilizasiyasının mühüm fenomeni sırasında şəhərsalma fəaliyyətinin geniş vüsət almasını, yeni şəhərin – müsəlman şəhərinin təşəkkül tapıb sürətlə inkişaf etməsini xüsusi qeyd etmək lazımdır. İslam coğrafiyasının tərkibində yer alan Azərbaycan bu proseslərdən kənarda qala bilməzdi. Orta əsr yazılı mənbələri Azərbaycanın abad və nemətlərlə zəngin şəhərləri haqqında məlumat verirlər. Ərəb tarixçiləri, coğrafiyaşünasları, səyyahları həmin şəhərlər arasında Şəmkir şəhərinin də adını çəkirlər [12]. Ərəb işğalı ərəfəsində Şəmkir Albaniyanın qala-şəhərlərindən biri idi. IX əsr tarixcisi Əhməd əl-Bəlazuri ərəb sərkərdəsi Səlman ibn Rəbiə əl-Bahilinin 644-cü ildə Şəmkiri zəbt etməsindən bəhs edərkən bu şəhərin qədim şəhər olmasını xüsusi vurğulayır [1, s.113]. Şəmkirin etnik durumunda türk etnosu əsas toplum olmuş, yazılı qaynaqlar onu əski türk şəhəri adlandırmışdır.

Ərəb işğalı ərəfəsində Şəmkir şəhərinin sakinləri əsasən xristianlardan ibarət idi. Moisey Kalanlatuklunun “Albaniya tarixi” əsəri Şəmkir şəhərini xristian mədəniyyətinin mərkəzlərindən biri kimi təqdim edir. Müəllifin məlumata görə bu şəhərin xristian ruhani elitası hətta ölkə hüdudlarından kənarda da alban xristian icmasını təmsil edirdilər. Qüds şəhərində Müqəddəs Məryəm xatirəsinə inşa olunmuş Partav monastırının bir hissəsini Şəmkirdən buraya gəlmiş Mariya adlı bir qadın idarə edirdi [8, II, 50]. VIII əsrdə alban kilsə toplantısı Şəmkirdə, buradakı Berd monastırında çağrılmışdı. Alban tarixçisi bildirir ki, Albaniyanın katolikosu Mikayılın çağırdığı bu toplantıda yaxın qohumlar arasında nigah pislənilmiş və bunu qadağan edən qərar qəbul edilmişdir [8, III, 11].

Şəhərdə əhalinin islamı qəbul etməsi tədrici proses olmuşdu. Artıq IX-X əsrlərdə şəhər sakinlərinin əksəriyyətini müsəlmanlar təşkil edirdi. Bu şəhər Qafqazda erkən islamlaşan şəhərlərdən biri hesab olunur. Ərəb sərkərdəsi Böyük Buğanın İslamı qəbul etmiş xəzərləri, Bərdə tacirlərinin bir qismini Şəmkirə köçürməsi də bir tərəfdən şəhər iqtisadiyyatının inkişafına, digər tərəfdən isə şəhərdə müsəlmanların mütləq əksəriyyət təşkil etməsinə yönəlmişdi.

Şəmkir şəhəri IX əsrin ikinci yarısı – X əsrdə yüksəliş kecirərək mühüm sənətkarlıq və ticarət mərkəzinə cevrilmiş, Azərbaycanın Sacilər, Salarilər, Şəddadilər dövlətlərinin, daha sonra isə Azərbaycan Atabəyləri dövlətinin mühüm mərkəzlərindən biri olmuşdur. Səlcuqlar dövründə çiçəklənmə çağını yaşayan şəhər monqol işğalı zamanı inadlı müqavimət göstərmiş və monqollar tərəfindən dağılmışdır.

**Orta əsr Şəmkir şəhəri yeri.**

Qədim Şəmkir şəhərinin xarabalıqları hazırda Şəmkirçayın sol sahilində, Qədimqala kəndinin şimalında yerləşir (şəkil 1).




Şəkil 1. Xəritə

Abidənin arxeoloji tədqiqindən məlum olur ki, Şəmkir şəhəri Azərbaycan, ümummüsəlman şəhərləri üçün səciyyəvi olan üç topoqrafik hissədən ibarət idi: narınqala (içqala), şəhristan (içərişəhər) və rabad (bayırşəhər). Narınqala şəhristanın şərqində, Şəmkirçayın sol sahilində, çay yatağından 8,5 m hündürlükdə yerləşməklə 1 hektara yaxın sahəyə malikdir (şəkil 2). Şəhər xarabalıqlarının qala divarları ilə əhatə olunan sahəsi (şəhristan) 20 hektardan artıq ərazini əhatə edir, qərb-şərq istiqamətində olmaqla planda dördbucağa yaxın formadadır. Rabadın şəhər qala divarlarından cənuba və qərbə geniş ərazini, habelə Şəmkirçayın sağ sahilini tutması şübhə doğurmur. Rabadın qala divarları ilə əhatə olunmasını təsdiq və ya inkar etmək çətindir. Şəhər qala divarlarından şimalda müsəlman qəbiristanının yerləşdiyi ehtimal olunur.




Şəkil 2. Şəmkir şəhər yerinin fəzadan görünüşü

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmiş siyahıda Qədim Şəmkir şəhəri Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi statusuna malikdir. Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2019-cu il sərəncamı ilə "Qədim Şəmkir Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilib.

XIX əsrin ilk qərinəsindən Şəmkir şəhər yeri tədqiqatçıların diqqətini cəlb etmiş, J.F.Qamba, F. D. de Monpere, N. Florovskinin əsərlərində onunla bağlı, xüsusilə məşhur Şəmkir minarəsi (qülləsi) haqqında maraqlı informasiya verilib. XX əsrdə arxeoloqlar Şəmkir şəhər yerində olsalar da burada arxeoloji qazıntılar aparılmamışdır. 2006-cı ildə Şəmkir şəhər yerinin şəhristan ərazisində 16 $m^2$ sahədə stratiqrafik yoxlama qazıntı aparılaraq burada VIII-XIII əsrlərdə intensiv şəhər həyatını əks etdirən zəngin mədəni təbəqə yatımının olduğunu müəyyənləşdirildi. I qazıntı sahəsində XI əsrin tikililərinin bünövrələri götürüldükdən sonra mədəni təbəqənin VIII-X əsrlərə aid edilən alt inşaat qatında iki təndirxana və iki quyu üzə çıxarılıb tədqiq edildi. Təndirxanalardan biri qazıntı sahəsinin şimal-qərb, digəri isə şimal-şərq sektorunda yerləşmişdi. X əsrə aid edilən birinci təndirxanada təndir nisbətən yaxşı mühafizə olunmuşdu və divarlarının hündürlüyü 42 sm-ə çatırdı. Təndirdən və ətrafından mətbəxlə bağlı avadanlıq, o cümlədən saxsı qazan qırıqları, bıçaq, bıçağın tiyəsini xatırladan dəmir əşya, şirli saxsı duzqabı və s. tapılıb. IX-X əsrlərə aid edilən ikinci təndirxanada üç təndirin qalığı aşkarlanaraq tədqiq edilib. Təndirxananın fəaliyyət göstərdiyi müddətdə üç təndir biri-digərini əvəz etmişdi.

VIII əsrə aid edilən iri təsərrüfat quyusu quruluşu və tapıntıların zənginliyi ilə fərqlənmişdir. Planda düzgün olmayan dairə formasında, dərinliyi 2,36 m, diametri ağzında 187-197 sm olan bu quyunun divarları tədricən aşağıya doğru konusvari genişlənib -116 sm dərinlikdə 220 sm-ə çatırdı. Daha sonra quyu divarları çıxıntı yaradaraq daralıb, silindrik biçimdə 120 sm davam edirdi. Quyunun dibində diametri 160 sm idi. Quyudan müxtəlif təyinatlı dəmir məmulat, misdən bəzək əşyası, şirsiz saxsı məmulatı, xüsusilə çoxlu şüşə qab qırıqları, dən daşı fraqmenti tapıldı. Quyudan əldə olunan artefaktlar, keramika nümunələri, çoxsaylı şüşə məmulatı, eləcə də dən daşı quyunun VIII əsrdə istifadə olunduğunu müəyyənləşdirməyə əsas verir.

I qazıntı sahəsində aparılan arxeoloji qazıntılar şəhər yerində VIII-XIII əsrin birinci yarısına aid mədəni təbəqə yatımının mövcudluğunu, abidənin müsəlman mədəniyyətinə mənsubluğunu təsdiqlədi.

2007-2022-ci illərdə geniş miqyaslı stasionar arxeoloji qazıntı işləri 1 hektardan artıq ərazini əhatə etməklə əsasən abidənin narınqala və şəhristan sahələrində görülüb, hazırda narınqalada davam edir. Aparılan arxeoloji qazıntılar şəhərin etnik-mədəni mənsubiyyətini, inkişaf dinamikasını əks etdirən mədəni təbəqənin qalınlığının abidənin müxtəlif hissələrində fərqli olub 2,5-5,5 m arasında dəyişdiyini göstərir.

Erkən İslam dövründə (VIII-X əsrlər) şəhər memarlığı üçün çaydaşı, çiy kərpic və bişmiş kərpicdən istifadə olunmaqla inşa edilmiş tikililər səciyyəvidir. Bir qayda olaraq binaların bünövrəsi çaydaşından qoyulur, divar hörgüsünün aşağı cərgələri çaydaşından, yuxarı cərgələri isə çiy kərpicdən hörülürdü. IX-X əsrlərdə mövcud olmuş şəhər qala divarının fraqmenti arxeoloji qazıntılarla üzə çıxarılıb. Divarın hörgüsünün aşağı cərgələri yüksək keyfiyyətli yapışdırıcı əhəngli məhluldan istifadə etməklə çaydaşı ilə hörülmüşdü, üst cərgələr isə 32x32x8 sm, 30x30x8 sm ölçülərdə çiy kərpiclərlə inşa olunmuşdur.

Narınqalanın şimal-şərq sektorunda üzə çıxarılmış, IX əsrin ortalarında inşa olunmuş, XI əsrin əvvəllərində yangın nəticəsində sıradan çıxmış monumental bina İslam arxeoloji memarlığının maraqlı abidələrindəndir (şəkil 3). Binanın dördbucaq biçimli, sütunlu həyəti ətrafında ondan artıq otaq yerləşirmiş. 2000 $m^2$ artıq sahəyə malik binanın cənub, şərq otaqlarının və şimal otaqlarından ikisinin qapısı həyətə açılırmış. Binanın divarlarında hörgünün alt cərgələri çaydaşından, üst cərgələr isə 32x32x8 sm, 30x30x8 sm ölçülərdə çiy kərpicdən hörülüb. Daş hörgüdən çiy kərpic hörgüyə keçiddə antiseysmik ağac kəmərlər yerləşdirilib. Kəmər qalıqlarından götürülmüş oduncaq nümunələrinin AMEA Mərkəzi Nəbatət Bağının "Bitkilərin

mühafizəsi və monitorinqi" laboratoriyasında tədqiqi onların palıd ağacına məxsusluğunu göstərmişdir. Kompleksin divarlarının qalıqlarının hündürlüyü isə 3,2-5,5 m-ə arasında dəyişir. Otaqlardan ikisində, 1 və 8 saylı otaqlarda kəsilmiş silindr formalı divariçi oyuq – camaxatan qeydə alınmışdır. Binanın döşəməsi ilk vaxtlar əhəngli suvaqla örtülmüşdü. Həyətdə döşəmə təmizlənərkən bişmiş kərpic qalaqları, xeyli miqdarda vaxtilə binanın karnizini təşkil edən gəc bəzək fraqmentləri tapılmışdır. Görünür, cənub, şərq və şimal otaqlarının qarşısında, onlarla sütunlar arasında tağtavanlı eyvanlar olmuşdur. Gəc bəzəklər vaxtilə eyvanın karnizində yerləşibmiş [3; 6].

Arxeoloji dəlillər monumental binanın XI əsrin ilk onilliyində, görünür, avqust və ya sentyabr ayında burada baş vermiş güclü yanğın nəticəsində sıradan çıxdığını təsdiqləməyə imkan verir.



Şəkil 3. Şəmkir narınqalasının fəzadan görünüşü

Monumental binanın cənub-şərq bürcündən cənubda üzə çıxarılmış IX-X əsrlərə aid təndirxanalar çay daşları ilə hörülmüş divarla əhatələnmişdir. Birinci təndirxana nisbətən yaxşı mühafizə olunmuşdu, burada 3 təndir qalığı və istifadə olunmuş suyun hopdurulması üçün quyu aşkar edilərək təmizlənmişdir. Kompleksin sahəsi yastı daşlar və bişmiş kərpiclərlə döşənmişdi. Cənubda yerləşən ikinci təndirxananın şimal-qərb tərəfində təndir və onun yaxınlığında ocaq qalığı aşkarlanmışdır.

X əsrin sonundan şəhərin mülki binalarında Arran memarlıq məktəbinə xas əlamətlər özünü göstərməyə başlayır. Şəhərin şəhristan sahəsində arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan, bişmiş kərpicdən inşa olunmuş yaşayış evlərinin divarlarına çaydaşı hörgüsü ilə həndəsi bəzək salınıb.

Arxeoloji dəlillər sakinlərin rahat və sağlam yaşam tərzinin təmin olunmasına yönəlmiş şəhər abadlığına diqqət yetirildiyini təsdiqləməyə əsas verir. Şəhər abadlığı əsasən üç istiqamətdə həyata keçirilirdi: 1) küçə və meydanlar döşənir, onların səliqə-sahmanına diqqət yetirilirdi; 2) şəhər əhalisinin suya tələbatını təmin etmək məqsədi ilə su kəmərləri çəkilir və ya kəhrizlər inşa edilirdi; 3) şəhərin sanitariya-gigiyena durumunu zəruri səviyyədə saxlamaq məqsədi ilə şəhərlərdə yaşayış evləri, ictimai və dini binalar, istehsalat tikililəri sanitar-gigiyena təyinatlı xüsusi mühəndis qurğuları ilə təchiz olunurdu [2, s. 90].

Arxeoloji qazıntılar zamanı IX-X əsrlərə aid inşaat qatında üzə çıxarılan həyətlər nazik, yastı çaydaşları, tava daşlar və kvadrat biçimli bişmiş kərpiclərlə döşənmişdi. Şəhər sakinlərinin su ilə təchizatında kəhriz və saxsı tünglərdən quraşdırılmış su kəmərləri başlıca mühəndis qurğuları idi.

Şəhərdə sanitariya-gigiyena məsələlərinin həllinə yönəlmiş xüsusi mühəndis qurğuları dü-

zəldilirdi. Çirkab və zibil quyuları, derinaj və kanalizasiya xətləri belə qurğulardan idi. Erkən İslam dövrünə aid şaxələnmiş kanalizasiya sisteminin qalıqları şəhər yerinin narınqala sahəsində, IV qazıntıda da üzə çıxarılıb. IX –X əsrlərə aid həmin mühəndis qurğusu bişmiş kərpic, çaydaşı və ağ daş lövhələrdən istifadə etməklə kürəbənd üsulu ilə inşa olunmuşdur [2, s. 91].

Yazılı mənbələr və arxeoloji dəlillər Şəmkir şəhərində sənətkarlıq istehsalının bütün sahələrinin Müsəlman Şərqi üçün ənənəvi sənət sahələri olduğunu göstərir. Xüsusilə bədii sənət sahələrinin müxtəlifliyi və istehsal olunan məhsulun yüksək bədiiliyi diqqətəlayiqdir. İslamın tələblərinə uyğun dekorativ-tətbiqi sənətlərdə yeni üslub təşəkkül tapıb inkişaf edir. Şəmkir keramikası İslam incəsənətinin səciyyəvi xüsusiyyətini daha qabarıq əks etdirir. Həmin sənət əsərlərində ornament, kalliqrafiya və təsviri motivlər kamilliklə və ahəngdarlıqla uzlaşır. Həndəsi naxış motivlərindən dairə, üçbucaq, romb, kvadrat, qövs, tor, astral elementlər - ulduzlar, svastika, çərxi-fələk geniş istifadə edilib. Bu naxışlar təkcə dekorativ əhəmiyyət deyil, həm də ideya yükü daşıyırdı. Erkən şirli saxsı məmulatının bədii tərtibatında altı və səkkizguşəli ulduz, svastika və "çərxi-fələk" ornamentlərinin geniş müraciət olunması diqqəti çəkməyə bilməz (Tablo I). Svastika müxtəlif regionların qədim və orta əsr mədəniyyətlərində özünə yer almış, məhsuldarlıq, uğur, nur, günəşin hərəkət və qüvvəsinin simvolu, xoşbəxtlik rəmzi idi. Müsəlman dekorativ-tətbiqi sənət əsərlərində, eləcə də dini və xatirə abidələrində müxtəlif təqdimatda svastika naxış elementinə rast gəlinməsi bu qədim simvolun transformasiya olunaraq İslamın tələblərinə uyğunlaşdırıldığını düşünməyə əsas verir. Svastika ornamentinin nəsildən nəsilə ötürülərək İslamın yayılmasından sonra davam etməsini təsdiqləyən artefaktlar sırasında yaşıl şir altında anqobla svastika elementinin kombinasiyasından ibarət astral dekoru qeyd etmək olar (Tablo I:3). Eyni naxışlı dulus məmulatı, o cümlədən pintaderlər Xocalı-Gədəbəy mədəniyyətindən yaxşı məlumdur [13, c. 81-82, рис. 4]. Xatırladaq ki, qədimdən məlum olan svastika transformasiya olunaraq İslamın tələblərinə uyğunlaşdırılmışdı. İslam anlamında dünyanın vahid nöqtədən yaradılması, svastikanın həmin yaranma prosesini təcəssüm etdirməsi təsəvvürləri mövcuddur [5, s. 98]. Erkən şirli keramika nümunələrinin bədii tərtibinda altı və səkkizguşəli ulduz naxışı xüsusilə geniş tətbiq edilirdi və dulusçu rəssamların sevimli astral naxışlardan idi (Tablo I: 4-5). Tədqiqatçıların fikrincə, orta əsr müsəlman cəmiyyətində, müsəlman təfəkkürünün daşıyıcılarında altıguşəli ulduz qüdrət və müdrüklüyün təcəssümü, müqəddəs 6 rəqəminin həndəsi ifadəsi, səkkizguşəli ulduz isə yerdən, maddi aləmdən səmavi aləmə keçidin rəmzi hesab olunurdu [14, s. 192-193].

Dekorativ-tətbiqi sənətlərdə kalliqrafiya bəzən ornamentin bir forması kimi çıxış edir (Tablo I: 6). Keramika üzərində ərəb dilində xeyir-duaların yazılması geniş yayılmışdı. Görünür, şəhər sakinləri ərəb dilini mükəmməl bilmiş, həyat fəaliyyətlərində ərəb yazının müxtəlif xətlərindən uğurla istifadə etmişlər. Duluscu rəssamların saxsı qabların bədii tərtibatında kufi və nəsx xətlərindən istifadə etmələri yuxarıda qeyd olunanları əyani təsdiqləyir. IX-X əsrlərin şirli saxsı məmulatının bədii işlənməsində monumentallığı ilə fərqlənən kufi xəttinin geniş tətbiqi xüsusilə qeyd edilməlidir. Keramika üzərində dini məzmunlu yazılara tez-tez rast gəlinməsi də diqqətdən kənarda qalmamalıdır. Misal üçün, X əsrə aid şirli saxsı qablardan birinin oturacağında mürəkkəblə nəsx xəttilə "Mühəmməd peyğəmbərə Allahın salamı olsun" (Tablo I:7), digərinin oturacağında "Allah azadlıq verəndir" sözləri yazılıb [10, s.115]. Bəzən keramika üzərində xeyir-dua sözlərlə deyil, ayrı-ayrı hərflərdən ibarət simvollarla verilirdi. Misal olaraq, şirli keramika üzərində simvol olaraq "mim", "nun" və "sin" hərfləri həkk edilmiş nümunələri göstərmək olar.

Ornamental kompozisiyaların tektonikasındakı müxtəliflik, bəzək motivlərinin orjinallığı, rəng çalarlarının uğurlu seçimi dulusçu rəssamların yüksək peşəkarlığını təsdiqləməklə Şəmkir şəhərinin mühüm dulusçuluq mərkəzlərindən biri olduğunu sübuta yetirir.




I tablo. Erkən şirli keramika nümunələri

Yazılı mənbə məlumatları, arxeoloji və numizmatik dəlillər Erkən İslam dövründə Şəmkirin müsəlman şəhəri olaraq Qafqazda İslam mədəniyyəti mərkəzlərindən birinə çevrildiyini təsdiqləməyə əsas verir. İslamın yayılması ilə əlaqədar Azərbaycanda, ilk növbədə başlıca mədəni mərkəzlər olan şəhərlərdə, o cümlədən Şəmkirdə ərəb dili yayılır və kargüzarlıqda, dini mərasim və ayinlərdə, elmi yaradıcılıqda ərəb dili şəriksiz hakim idi. Ərəb əlifbası üzərinə düşən funksiyanı uğurla yerinə yetirərək nəhəng ərazili, polietnik Xilafətdə birləşdirici qüvvə kimi çıxış edirdi. Yazılı qaynaqlar müsəlman mədəniyyətinin inkiafında rolu olmuş şəmkirli alimlərin adını saxlamışdır. Onlardan Əbu Əmir Osman ibn Məhəmməd ibn əl-Abbas ibn Cibril Mikayıl əl-Vərraq IX əsrin ikinci yarısı – X əsrin ilk qərinəsində yaşamış, Əli ibn Hərbdən dərs almışdır. Digər şəmkirli alim Əbül Qasım əl-Mücam ibn Yəhya əş-Şəmkiri isə Əbil Həsən Əli İbn Adnan əl-Miqrinin tələbəsi olmuşdur [11, s. 270-271].

IX əsrdə Azərbaycanda yerli dövlətlər yarandıqdan sonra da ərəb dili ünsiyyət dili, din

və elm dili olaraq əhəmiyyətini saxlamaqda idi. Epiqrafik tapıntılar Erkən İslam dövründə ərəb əlifbasının iki – rəsmi, monumental və adi, kursiv xətlərinin geniş tətbiq olunduğunu təsdiqləyir. "Kufi" adlanan birinci yazı növü bucaq altında qatlanan düz xətlərlə, "nəsx" adlandırılan ikinci isə aydın, dəyirmiləşdirilən xətlər və kursiv yazı olması fərqlənir. Ciddiliyi, əzəməti ilə diqqəti çəkən "kufi" xətti şəhərin monumental dini və mülki binaların bədii işlənməsində uğurla tətbiq olunurdu. Müsəlman Şərqinin monumental memarlığında, xüsusilə ictimai və dini binaların interyerinin bədii tərtibatında geniş tətbiq olunan gəc üzrə oymaçılıq Şəmkir sənətkarları tərəfindən mövcud islam bədii ənənələri əsasında mənimsənilmiş və inkişaf etdirilmişdir. Arxeoloji qazıntılar zamanı gəc bəzəklər daha çox IX-X əsrlərə aid monumental binanın tədqiqi zamanı tapılıb. Görünür, vaxtilə bu binanın divarları gəc karnizlə bəzədilibmiş. Gəc oymalar, əsasən, iki qatlıdır, bəzən üç qatlı nümunələrə rast gəlinir.




II tablo: 1-5- gəc bəzək fraqmentləri; 6-7- xaçdaş fraqmentləri

Naxış elementləri həndəsi, nəbati və epiqrafik xarakterlidir: dairə, romb, üçbucaq, vergüləbənzər işarə, qıvrılan budaq, qönçə, yarpaq, ərəb əlifbasının kufi xətti ilə yazılmış yazı və s. (Tablo II: 1-5). Nəbati naxış elementləri və kufi xətli yazı nümunələri bədii tərtibatda aparıcı mövqeyə nalikdir. Şəmkir gəctəraşları çoxqatlı oyma bəzəklərdə daha mürəkkəb və zəngin quruluşlu kompozisiyalar yaratmışlar. Onlar gəc dekorun bədii effektliyini artırmaq məqsədi ilə həm də müxtəlif rənglərdən istifadə edirdilər. Əksər nüsxələrdə naxışın yerliyi göy boya ilə boyanıb. Yerliyi göy və qırmızı boyalı gəc bəzəklərə də rast gəlinir (4, s. 34-39).

Şəhərdə Erkən İslam dövründə, eləcə də monqol işğalına qədərki sonrakı mərhələdə də xristian isması mövcud idi. Qurani-Kərimin **"**İman gətirənlərdən (müsəlmanlardan), musavi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər**"** kimi ayələri [Quran, "əl-Bəqərə", 62] müsəlman cəmiyyətində multikultural dəyərlərin mövcudluğu üçün zəmin yaratmışdı. Arxeoloji qazıntılar zamanı Şəmkir şəhər yerindən metal xaç asmaların, eləcə də xaçdaş fraqmentlərinin tapılması şəhərdə xristian icmasının mövcudluğunu sənədləşdirən artefaktlardandır. X əsrə aid edilən xaçdaşların üzəri qabarıq hörmə (toxuma) naxışla bəzədilib (Tablo II: 6-7). Ehtimal olunur ki, belə naxışlı xaçdaşlar alban incəsənətində X əsrdən tətbiq olunmuş, sonradan Azərbaycan sərhədlərindən çıxaraq hətta Mərkəzi Avropaya qədər yayılmışdı. Tədqiqatçılar Macarıstanda XI əsrin əvvəllərinə aid daş üzərində oxşar hörmə naxışlara rast gəlinməsini alban incəsənətinin təsiri ilə əlaqələndirirlər [7, s. 206].

**Nəticə**

Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar İlk orta əsrlərdə xristian mədəniyyətinin mərkəzlərindən biri olan Şəmkir şəhərinin artıq Erkən İslam dövründə müsəlman şəhərinə çevrildiyi, maddi mədəniyyətdə və məişətdə islam ənənələri bərqərar olduğunu təsdiqləyir. Şəhər xristian və islam sivilizasiayalarının təmas bölgəsində yerləşməklə Qafqazda müsəlman mədəniyyətinin yayılmasında və möhkəmlənməsində fəal iştirak etmişdir. Şəmkir şəhər yeri İslam mədəni irsinin incilərindən biridir, burada üzə çıxarılmış arxeoloji memarlıq qalıqları, bədii sənətkarlıq məmulatı Azərbaycanda müsəlman maddi mədəniyyətinin təşəkkül tapması və inkişafını öyrənilməsi nöqteyi-nəzərdən müstəsna əhəmiyyətə malikdir. Geniş miqyaslı arxeoloji qazıntıların, arxeoloqların gərgin əməyinin nəticəsi olaraq üzə çıxarılmış, xalqımızın, türk etnosunun quruculuq, yaradıcılıq potensialının göstəricisi bu mədəni irsi qorunması və təbliği, dağıntıya məruz qalmadan gələcək nəsillərə ötürülməsi istiqamətində zəruri tədbirlərin görülməsi, xüsusilə çiy kərpic memarlığının maraqlı abidələrindən biri hesab edilən, IX əsrin ortalarından XI əsrin əvvəllərinədək fəaliyyət göstərmiş monumental binanın konservasiya və qismən bərpası vacibdir.

**Ədəbiyyat siyahısı**


1. Bəlazuri. Kitab futuhi-l-buldən (Azərbaycanın VII-IX əsrlər tarixinə dair çıxarışlar) // Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. – Bakı: "Nurlan". 2005, – s. 104- 138.
2. Dostiyev T.M. Orta sr Şəmkir şəhərinin abadlığı arxeoloji qazıntılar işığında // Bakı Universitetinin Xəbərləri, ser. Humanitar elmlər, –2015, №1, – s. 89-96.
3. Dostiyev T.M. Orta əsr Şəmkir şəhərinin memarlığına dair // XXI əsr və tarixi islam şəhərləri. II Beynəlxalq konfransın materialları. Bakı: Az.MİU Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017. – s. 144-149.
4. Dostiyev T.M. Orta əsr Şəmkir şəhərinin gəc bəzəkləri // Azərbaycan arxeologiyası və etnoqrafiyası, –2019, №2, –s.34-39.
5. Dostiyev T.M. Şəmkirin erkən islam dövrü şirli keramikasında astral naxışlar // Dövlət və Din ictimai fikir toplusu, 2022, №1 (72), – s. 95-99.
6. Dostiyev T., Fərzəliyev V., Seyfullayev F. Orta əsr Şəmkir şəhər yerindən tapılmış oduncaq nümunələrinin dendroarxeoloji tədqiqi // Azərbaycan arxeologiyası, 2017, №1, – s. 84-92.
7. Helilov M, Nyitray Sz. Ösmagyarok Azerbajdzsanban. Budapest: Hun-idea, 2008 – 240 s.

8. Kalankatuklu M. Albaniya tarixi. Bakı: Elm, 1993. – 235 s.
9. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev). Bakı: Azərnəşr, 1991.
10. Nemət M. Şəmkir kitabələri // Azərbaycan arxeologiyası, 2009, №2, – s. 113-117.
11. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. – Bakı: "Nurlan", 2005. – 336 s.
12. Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. –Bakı: Elm və təhsil, 2016. – 480 s.
13. Наджафов Ш.И. Глиняные печати-пинтадеры из поселения Сарвантепе // Поволжская археология, – 2023, №1, – с. 76-81.
14. Старадуб Т.Х. Исламский мир: художественная культура VII-XVII вв. – Москва: Изд-во вост. лит. –2010, –255 с.

**Summary**

**Tarikh Dostiyev**

**The city of Shamkir in the early Islamic period**

This article, based on archaeological sources, examines the culture of the city of Shamkir of the early Islamic period (VII-X centuries). On the eve of the Arab invasion, Shamkir was one of the fortified cities of Albania. After the spread of Islam, the material culture of the city underwent radical changes, and already in the 9th-10th centuries the city became one of the centers of Muslim culture. The article analyzes the remains of structures and artifacts discovered in the strata of the 7th-10th centuries cultural layer, determines their cultural affiliation, and applies the method of comparative analysis**.** The study of the remains of a monumental building that functioned in the 9th-10th centuries, and artifacts discovered as a result of archaeological excavations, is important from the point of view of the formation and characteristics of Muslim material culture in Azerbaijan.

In the early Islamic period (VII-X centuries), the population of the city of Shamkir, by religious affiliation, mainly consisted of Muslims and Christians. If in the 7th-8th centuries the position of the Christian community in the city was quite strong, then already in the 9th-10th centuries the overwhelming majority of the city's residents were Muslims.

The results of this study can be applied in theoretical works on the culture of the early Islamic period of Azerbaijan.

***Keywords:*** *Azerbaijan, Shamkir, early Islamic period, Muslim culture, Islamic archaeological architecture*

**Резюме**

**Тарих Достиев**

**Город Шамкир в раннеисламском периоде**

В данной статье на основе археологических источников рассматривается культура города Шамкир раннеисламского периода (VII-X вв.). Накануне арабского нашествия Шамкир был одним из городов-крепостей Албании. После распространения ислама материальная культура города претерпела коренные изменения, и уже в IX-X веках город стал одним из центров мусульманской культуры. В статье проанализированы остатки сооружений и артефакты, обнаруженные в напластованиях VII-X веков культурного слоя, определена их культурная принадлежность и применен метод сравнительного анализа. Изучение остатков монументального здания, функционировавшего в IX-X веках, и артефактов, обнаруженных в результате археологических раскопок, имеет важное значение с точки зрения формирования

и характеристики мусульманской материальной культуры в Азербайджане. В раннеисламский период (VII-X вв.) население города Шамкира по конфессиональной принадлежности в основном состояло из мусульман и христиан. Если в VII-VIII веках позиция христианской общины в городе были достаточно сильна, то уже в IX-X веках подавляющее большинство жителей города были мусульманами. Результаты данного исследования могут быть применены в теоретических работах по культуре раннеисламского периода Азербайджана.

***Ключевые слова***: *Азербайджан, Шамкир, раннеисламский период, мусульманская культура, исламская археологическая архитектура*